

# Aparılan quruculuq işləri Qarabağın işıqlı gələcəyindən xəbər verir

***"Bu gün Qarabağ dirçəlir və bunun üçün dövlət tərəfindən əməli – praktiki addımlar atılır. Ötən 30 ildə erməni vandallarının xarabalığa çevirdikləri bölgədə aparılan işlər artıq üzü sabaha doğru gedir. İnkişafa, quruculuğa, abadlığa istiqamətlənən tədbirlərə Azərbaycan Prezidenti İlham Əliyev şəxsən diqqət və nəzarət edir". Bu fikirləri Milli Məclisin deputatı Aydın Hüseynov işğaldan azad edilən torpaqlarımızda aparılan tikinti, quruculuq, bərpa və abadlıqdan söz açarkən səsləndirdi. O, fikirlərinə davam edərək, görülən işlər barədə dedi:***

– Qarabağın, eləcə də, Şuşanın bərpası ilə bağlı dövlət başçısı tərəfindən verilən lazımi göstərişlər əsasında, 7 ay ərzində artıq çox böyük işlər görülüb. Prezidentin çıxışında bildirdiyi kimi, ermənilər nə qədər çalışsalar da, yenə də Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər: "...Əgər bu, erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi, niyə dağılmış vəziyyətdə idi, niyə bir dənə bina tikilməyib? Üç – dörd erməni məmurunun yeni villalarından başqa bir dənə də yeni bina tikilməyib". Dövlət başçısının tapşırığına əsasən, Şuşanın bərpası 14 yanvardan başlanıb və ilk növbədə, inkişafa, tərəqqiyə aparan yol çəkilib – Zəfər yolu! İndi Füzuli şəhərindən tunellər daxil olmaqla, daha qısa, magistral yol çəkilir. Qarabağda gedən quruculuq işlərindən danışarkən deməliyik ki, Şuşanın elektrik təsərrüfatı bərpa edilib, yüksəkgərginlikli xətlər Füzulidən gətirilib və yarımstansiya tikilib. Düşmənin Şuşanı tərk edərkən partlatdığı su xətləri bərpa edilib və indi iki mənbədən Şuşaya su gəlir. Natəvan bulağı uzun illərdən sonra işə salınıb. Ermənilər Şuşadakı 17 bulağın hamısını qurutmuşdular. Bu, erməni şəhəri, bulaqlar da özlərininki olsaydı, təbii ki, vandallar belə etməzdilər.

Deputat düşmənin işğal dövründə tarixi abidələrimizə, milli mənəvi sərvətlərimizə vurduğu zərərdən də danışdı:

– Şuşanın tarixi abidələrinin bərpası üzərində iş gedir. Molla Pənah Vaqifin məqbərəsini vandallar dağıdıb, büstünün yerində kiçik dükan açmışdılar. Onun məqbərəsinin içərisindəki barelyefini, həmçinin sinə daşını sökmüşdülər. Vaqifin məqbərəsi və büstü artıq bərpa edilib. Məqbərənin bərpasını Heydər Əliyev Fondu öz üzərinə götürmüşdü və avqustun 30-da məqbərənin önündə Vaqif Poeziya Günlərinə start verildi. Şuşada on illər sonra yenidən Vaqif Poeziya Günləri, ondan öncə, may ayında "Xarıbülbül" festivalı keçirildi. Hazırda üç məsciddə təmir – bərpa işləri gedir. Yuxarı Gövhər Ağa məscidinin təmiri, demək olar ki, bitmək üzrədir. Saatlı və Aşağı Gövhər Ağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verilib. Bu məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürüb. "Xarıbülbül" oteli istifadəyə verilib. X.Natəvanın, Ü.Hacıbəylinin, Bülbülün ermənilər tərəfindən güllələrlə dəlik - deşik edilmiş büstləri gətirilib və mərkəzi meydanda yerləşdirilib. Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyulub. Onun dağıdılmış evinin bərpası ilə bağlı göstəriş verilib. Bülbülün oğlu tərəfindən bərpa edilən evinin açılışı olub. "Qarabağ" oteli əsaslı təmirdən sonra yenidən qonaqların üzünə öz qapılarını açıb. Şuşada yeni beşulduzlu otel və konfrans mərkəzi tikiləcək. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təməlqoyma tədbirində iştirak ediblər. Amma bu tədbirlərin içində ən önəmlisi yeni yaşayış kompleksinin təməl daşının qoyulmasıdır ki, oraya illərlə doğma yurd həsrəti çəkən şuşalılar qayıdacaq.

Aydın Hüseynov yalnız Şuşada deyil, işğaldan azad edilən digər ərazilərdə aparılan bərpa və yenidənqurma işlərindən də söz açdı:

– Qarabağın hər yeri tikinti meydançasını xatırladır. İşğaldan azad edilmiş bütün şəhər, rayon və kəndlərimizdə quruculuq, abadlıq işləri aparılır. Əminliklə deyə bilərik ki, Qarabağ tezliklə, əvvəlkindən də abad olacaq.

Artıq Füzuli hava limanına uçuş həyata keçirilib. Bugün – sabah Zəngilan, Laçın hava limanlarının da açılışı olacaq. 70 il ərzində SSRİ - nin, 30 il işğal müddətində işğalçı Ermənistanın Qarabağda, o cümlədən Füzulidə, Laçında, Şuşada, Kəlbəcərdə, Ağdamda, Cəbrayılda, Zəngilanda, Qubadlıda... qurmadığı, yaratmadığı infrastruktur çox qısa zamanda müstəqil Azərbaycan dövləti tərəfindən yaradılmaqdadır. Ağdamda şəhər planlaması, quruculuq prosesi, infrastruktur layihələrin həyata keçirilməsi açıq – aydın görünür. Çoxmərtəbəli bina tikintisi üçün işlək kran, "ağıllı şəhər"in baş planına uyğun təməlatmalar, yeni ünvanların göstəriciləri, nişanlar... – Ağdamın gələcək günlərindən xəbər verir.

Dövlətimizə, onun rəhbərinə min alqış!

***Qələmə aldı:***
***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 10 sentyabr.- S.3.